# AZƏRBAYCAN MƏLUMAT BÜLLETENI

# Azerbaijan

Sentyabr 2024-cü il

BMT QAK Azərbaycanda olan qaçqın, sığınacaq axtaran, məcburi köçkün və vətəndaşlığı olmayan şəxslər üçün **davamlı həll yolları**nın müəyyən edilməsində Hökumətə dəstək göstərir.

**Didərgin şəxslərin özgüvəni**ni artırmağa yönəlmiş müdaxilələrlə yanaşı, BMT QAK icma səlahiyyətləndirilməsi, hüquqi və sosial yardım proqramlarını həyata keçirir.

**BMT-nin 2030 Gündəliyi**nə uyğun olaraq, BMT QAK **iqlim dəyişikliyinin didərginlərə təsirini azaltmaq** üçün COP29-la əlaqəli maarifləndirmə və təşviqat işləri aparır.

## ƏHALİ STATİSTİKASI (2024-cü ilin ortasında)*

| | |
|---|---|
| Qaçqınlar | **8087** |
| Sığınacaq axtaranlar | **224** |
| Vətəndaşlığı olmayanlar | **513** |
| Məcburi köçkünlər | **657749** |

### Üç başlıca mənşə ölkəsi*

**Qaçqınlar**

| | |
|---|---|
| Ukrayna | 6,540 |
| Əfqanıstan | 1,106 |
| Rusiya Federasiyası | 271 |

**Sığınacaq axtaranlar**

| | |
|---|---|
| Ukrayna | 170 |
| Pakistan | 49 |
| İordaniya | 4 |

**BMT QAK-ın yarımillik statistik hesabatı və BMT QAK-ın* *məlumat axtarış bazası*

## Zorla didərgin salınmış şəxslərin himayəsi

### COP29-a dəstək

BMT QAK, BMT-nin Ölkə Heyəti vasitəsilə, COP29 çərçivəsində iqlim dəyişikliyinin didərgin əhaliyə təsirlərinə xüsusi diqqət yetirir. Milli və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək, BMT QAK maarifləndirmə, siyasət dialoqu və iqlim fəaliyyəti ilə zorla didərgin salınma arasındakı əlaqəni vurğulayan təşəbbüslərə töhfə verir. Bu çərçivədə inklüziv və davamlı həllərin zəruriliyinə diqqət çəkir.

### Potensialın gücləndirilməsi üçün texniki yardım

BMT QAK, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə (Dövlətqaçqınkoma) texniki dəstək göstərmək və yerli potensialın artırılmasına dəstək vermək məqsədilə Birgə Daxili Köçkünlük Profili Xidməti (JIPS) ilə əməkdaşlıq edir. 2024-cü ilin iyun ayında həyata keçirilmiş missiya zamanı və sonrasında JIPS, BMT-nin Milli Keyfiyyət Təminatı Çərçivəsinə (UN NQAF) əsaslanan özünüqiymətləndirmə yanaşmasından istifadə edərək Məcburi Köçkünlərin Reyestrinin hərtərəfli keyfiyyət qiymətləndirilməsini aparıb.

## ƏSAS MƏQAMLAR

2084 məcburi köçkün 2024-cü ilin birinci yarısında yeddi şəhər və rayonda həyata keçirilən hüquqi yardım və sosial məsləhət layihələrindən faydalanıb.

155 mina təhlükəsizliyi ilə bağlı məlumatlandırıcı lövhə BMT QAK-ın dəstəyi ilə hazırlanıb və quraşdırılıb.

40 qaçqın gəncin 2024-cü ildə DAFI Təqaüd Proqramı çərçivəsində və illik təhsil haqlarının ödənilməsinə dəstək vasitəsilə ali təhsil almasına dəstək göstərilib.

21 vətəndaşlığı olmayan şəxs 2024-cü ildə vətəndaşlıq əldə edib, BMT QAK-ın dəstəyi ilə vətəndaşlıq əldə etmək üçün əlavə fərdi müraciətlərin icrası isə il ərzində davam edib.

3263 məcburi köçkün və digər həssas qrupdan olanlar 2024-cü ilin may-iyun aylarında Yaponiyanın “Fuji Optical” şirkəti tərəfindən göz müayinəsindən keçərək ödənişsiz eynəklərlə təmin olunub.



*Bakıda inklüziv idman tədbiri @BMT QAK Azərbaycan*

### İQLİM DÖZÜMLÜLÜYÜ ÜÇÜN İNKLÜZİV İDMAN

2024-cü il 11 iyun tarixdə Bakıda Qaçqınlar Günü çərçivəsində keçirilən mini-futbol turniri idmanın didərginlərin yerləşdikləri icmalara inteqrasiyasında oynadığı mühüm rolu vurğulayıb. Qaçqınların iştirakı ilə təşkil olunan tədbir, inklüzivlik, dayanıqlılıq və iqlim fəaliyyətinə diqqət çəkərək, COP29 məqsədləri ilə uzlaşaraq iqlim dəyişmələri fonunda didərginlər üçün təşviqat aparmağı hədəfləyib.

Daha ətraflı burada.

## Əsas prioritetlər

- **Xidmətlərə çıxış:** BMT QAK qaçqınların təhsil, səhiyyə və məşğulluq sahələrinə çıxışını monitorinq edir və ən həssas durumda olanlara maliyyə dəstəyi göstərir. 2024-cü ildə 682 qaçqın dövlətin səhiyyə sığortasından (TƏBİB) yararlanıb. Bundan əlavə, 252 qaçqın müxtəlif tibbi ehtiyacları üçün BMT QAK-dan nağd pul yardımı alıb. Həssas durumda olan 162 ailəyə müntəzəm nağd pul yardımı göstərilib, 52 ailə isə birdəfəlik ödəmələr alıb. 2024-cü ildə BMT QAK tərəfindən həssas durumda olan 140 ukraynalı yardım proqramına cəlb edilib.
- **Hüquqi və sosial yardım:** 2024-cü ildə BMT QAK yeddi rayon üzrə 2084 məcburi köçkünə hüquqi yardım və məsləhət xidməti göstərib. Bundan əlavə, 69 qaçqın və sığınacaq axtaran şəxsə, 146 vətəndaşlığı olmayan şəxsə hüquqi yardım göstərilib. BMT QAK həmçinin qaçqın və sığınacaq axtaran şəxslər üçün 183 hüquqi məsləhət, vətəndaşlığı olmayan şəxslər üçün isə 410 hüquqi müdaxilə təşkil edib. Bu müdaxilələrə 64 nəfər üçün vətəndaşlıq müraciətləri də daxildir.
- **İcma səlahiyyətləndirilməsi və özünü təminetmə:** BMT QAK, Dövlətqaçqınkomla əməkdaşlıq çərçivəsində Ağdam və Bakıda icma mərkəzləri üçün material və avadanlıq təmin edərək məcburi köçkün icmalarının təşəbbüslərini dəstəkləyib.
- **Gənclərin və qadınların səlahiyyətləndirilməsi:** BMT QAK-ın məcburi köçkün gənclərin və qadınların səlahiyyətləndirilməsi layihəsi 2024-cü ildə genişləndirilərək özünütənzimləmə və dayanıqlılığın artırılmasına yönəlib. İdman, əyləncə tədbirləri və teatr qrupu kimi fəaliyyətlər özünüifadə və liderlik bacarıqlarının inkişafı üçün platformalar təqdim edərək 2024-cü ildə təxminən 100 nəfərə fayda verib. Qaçqın gəncləri və qadınları icma tədbirlərində, o cümlədən ağacəkmə aksiyalarında iştirak edib və istedadlarını nümayiş etdirmək, şəbəkələrini genişləndirmək üçün sərgilərə qatılıb, iqtisadi imkanlardan yararlanıblar.
- **Potensialın gücləndirilməsi:** Altı dövlət rəsmisi və hakimlər vətəndaşsızlıq və qaçqın hüququ üzrə Sanremo onlayn kurslarında iştirak edib. Bundan əlavə, Dövlət Statistika Komitəsinin (DSK) bir rəsmisi 2024-cü ilin may ayında keçirilmiş BMT Avropa İqtisadi Komissiyasının (UNECE) Miqrasiya Statistikası üzrə Ekspertlər Qrupunun İclası və Qaçqınlar, Məcburi Köçkünlər və Vətəndaşlığı Olmayanlarla bağlı Beynəlxalq Tövsiyələr üzrə Seminarına qatılıb.
- **Qaçqınların sosial-iqtisadi inteqrasiyası:** BMT QAK qaçqınların dolanışıq imkanlarını dəstəkləmək məqsədilə özəl sektor, inkişaf qurumları və dövlət orqanları ilə əməkdaşlıq edir. 2024-cü ildə 37 qaçqın rəsmi işə başlayıb, o cümlədən yeddi nəfər taksi xidməti icazəsi alıb. Bundan əlavə, BMT QAK-ın təşəbbüsü ilə 67 gənc və qadın bacarıq təlimlərində iştirak edib.

## Tərəfdaşlarla iş

- BMT QAK məcburi köçkünlərin və vətəndaşlığı olmayan şəxslərin müdafiəsini gücləndirmək məqsədilə dövlət qurumları, qeyri-hökumət təşkilatları və beynəlxalq qurumlarla əməkdaşlıq edir.
- 2024-cü ildə BMT QAK Almatı Prosesi kimi vacib tədbirlərdə iştirak edib və Dövlət Miqrasiya Xidməti (DMX) və Ombudsman Aparatı ilə birgə təlimlər təşkil edib. Bu səylər qaçqınların müdafiəsi, vətəndaşlığı olmayan şəxslər və iqlim fəaliyyətinə dair əməkdaşlığı gücləndirib və Daxili İşlər Nazirliyi (DİN), Dövlət Sərhəd Xidməti (DSX), Ədliyyə Nazirliyi (Penitensiar Xidmət), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) də daxil olmaqla müxtəlif hökumət qurumlarından 50-dən çox nümayəndə üçün təlimlər keçirilib.
- BMT QAK iqlim dəyişikliyinin didərginlərə təsirinə fokuslanaraq, COP29-a dəstək göstərən BMT Ölkə Heyətinin səylərində fəal iştirak edir. BMT QAK, BMT agentliklərinin tədbirlər, kampaniyalar və digər birgə təşəbbüsləri üçün kommunikasiya, brendləşmə və koordinasiya dəstəyi göstərərək, BMT Kommunikasiya Qrupunun müvəqqəti sədrliyini həyata keçirir.

## Vətəndaşsızlıq

- Azərbaycan 1996-cı ildən etibarən BMT-nin 1954 və 1961-ci il tarixli Vətəndaşsızlıq üzrə Konvensiyalarına qoşulub. 2014-cü ildən indiyədək #IBelong kampaniyası çərçivəsində 2000-dən çox vətəndaşlığı olmayan şəxs vətəndaşlıq əldə edib və 6000-dən çox insanın vətəndaşlıq mənsubiyyəti müəyyən edilib.
- 2024-cü ildə BMT QAK sənədləşdirilmiş 64 vətəndaşlığı olmayan şəxsin vətəndaşlıq əldə etməsi üçün müraciətlərinə dəstək göstərib.
- 29 mart 2024-cü il tarixdə DMX-nin rəhbərlik etdiyi, DSK-nin yeni üzv kimi qoşulduğu və BMT QAK-ın üzv olduğu Vətəndaşsızlıq üzrə İşçi Qrupu vətəndaşsızlığın azaldılması, maneələrin aradan qaldırılması və mümkün həll yollarının araşdırılması mövzularını müzakirə etmək üçün toplantı keçirib.

## BMT QAK-ın Azərbaycanda mövcudluğu

| Heyət: | İdarələr: |
|---|---|
| 22 Milli heyət | 1 Bakı şəhərində Nümayəndəlik |
| 3 Beynəlxalq heyət | |
| 9 Köməkçi heyət | |

## Maliyyə məlumatı (sentyabr 2024-cü il)

**Maliyyə ehtiyacları**
8,0 M $




BMT QAK əsas donorlara göstərdikləri dəstəyə görə təşəkkür edir:

**Avstraliya | Belçika | Danimarka | Fransa | Almaniya | İrlandiya | Niderland | Yeni Zelandiya | Norveç | Koreya Respublikası | İsveç | Böyük Britaniya və Şimali İrlandiya Krallığı | İsveçrə**

BMT QAK həmçinin özəl sektorun və fərdi şəxslərin göstərdiyi səxavətli töhfələrə görə minnətdarlığını bildirir.